# Allahın məhbusu

## Riçard Vurmbrandın hekayəsi



# Allahın məhbusu

## Riçard Vurmbrandın hekayəsi

Originally published in English under the title:
*God's Prisoner: The Story of Richard Wurmbrand* by Voice of the Martyrs
Text Copyright 2015 The Voice of the Martyrs, Inc.
Illustrations Copyright 2009 The Voice of the Martyrs, Inc.

© 2022 The Voice of the Martyrs, Inc. for the Azerbaijani Edition. Translated by permission. All rights reserved.
ISBN: 978-617-503-171-1

Müqəddəs Kəlama əsaslanmış sitatlar Müqəddəs Kitab





# Məsih uğrunda həbsdə olanlara və onların qayıtmasını gözləyən ailələrə həsr olunur

Özünüzü həbsdə olanların yerinə qoyaraq onları yada salın. Əzab içində olanları elə xatırlayın ki, sanki özünüz də onlarla birgə əziyyət çəkirsiniz.

*– İbranilərə 13:3*

## *Valideynlər və müəllimlər üçün qeyd*

Dünya 1989-cu ildə böyük bir möcüzənin şahidi oldu. Berlin divarı dağıldı və onun arxasınca domino kimi Şərqi Avropanın kommunist hökumətləri dağıldı. Yetmiş ildən artıq bir müddətdə Avropanın şərq hissəsi dünyanın qalan hissəsindən "dəmir pərdə" ilə ayrılmışdı. Bu ölkələr tikanlı məftillərə bükülmüş və həyəcan siqnalları ilə təchiz edilmiş istehkamlarla əhatə olunmuşdu. Bütün bunlar onları demokratiya, kapitalizm və din təhlükələrindən qorumaq, hökumətin kommunist ideallarını ləkəsiz saxlamaq üçün lazım idi.

ABŞ və Sovet İttifaqı Soyuq Müharibə dövründə dayanmadan hərbi güc qurarkən, Dəmir Pərdə arxasında, kommunist hökumətləri məsihçiləri həbs edir, kilsələri bağlayır və Müqəddəs Kitabı qadağan edirdi. Lakin bütün bunlara baxmayaraq, məsihçilər Allaha ibadət etmək və Müqəddəs Kitabları paylamaqda ələ keçsəydilər, cərimələr ödəməyə və hətta həbsxanaya getməyə hazır idilər. Belə məsihçilərdən biri Rumıniyada yaşayan Riçard Vurmbrand idi.

Bu çətinliklər yəhudi ailələrindən olan Riçard və onun həyat yoldaşı Sabinadan yan keçmədi. Onlar İsanı öz Xilaskarları kimi qəbul edərək müjdəçi səylərinə görə təqiblərə məruz qaldılar. Bütün bu əzablara əlavə olaraq Sabinanın ailəsi Hitlerin Holokostunda öldürüldü.

İkinci Dünya müharibəsindən sonra nasistlər Rumıniyadan çıxarıldıqda Sovet İttifaqının tankları oraya girdi. Onlar özləri ilə başqa bir çətinlik gətirdilər – indi yəhudilər deyil, kilsələr əzab çəkməyə başladı. Lakin Riçard və Sabina qorxmadılar və ölkədən qaçıb, getmədilər. Bunun əvəzinə onlar işğalçı qüvvələri salamlamağa çıxdılar, bu işğalçılara öyrədilmişdi ki, din "xalq üçün tiryək" dir. Riçard, Sabina və onların imanlı bacı-qardaşlarından ibarət bir qrup gələn minlərlə əsgərə rus

dilində İncil kitabları verdilər. Riçard sovet əsgərləri ilə görüşmək üçün hər cür imkandan istifadə edirdi, qatarda onlarla birgə oturur və İsa haqqında danışmaq üçün onların düşərgələrinə girməyin yollarını axtarırdı.

Bu arada Rumıniyanın kommunist hökuməti kilsələri bağladı və uşaqlar üçün Müqəddəs Kitab dərslərini qadağan etməyə çalışdı. Kommunist hökumətini dəstəkləmək üçün Rumıniyadakı kilsə rəhbərləri konqresə dəvət edildi. Lüteran kilsəsinin xidmətçisi olan Riçard da bu konqresdə iştirak etdi və orada eşitdiklərindən şoka düşdü. Kilsə rəhbərləri bir-bir kürsüyə qalxaraq məsihçiləri rekord sayda həbsxana və əmək düşərgələrinə göndərən Sovet İttifaqının diktatoru İosif Stalini təriflədilər. Sabina buna dözə bilmədi. O, ərinə pıçıldadı: “Məsihin üzündən bu rüsvayçılığı sil”. Bunun nə ilə nəticələnəcəyini yaxşı bilən Riçard həyat yoldaşını xəbərdar etdi ki, ictimai tərzdə belə bir açıqlama vermək onun həbsinə səbəb ola bilər. Ürəyini Məsihə və Onun kilsəsinə bağlamış olan Sabina belə cavab verdi: “Mənə qorxaq ər lazım deyil”. Nəhayət, Riçard kürsüyə qalxdı və kommunistlərə baş əyən kilsə rəhbərlərinə öz fikrini bildirdi.

O vaxtdan bəri artıq Riçardın həyatı üçün təhlükə var idi. 1948-ci ilin fevralın 28-də o, küçədən qaçırılaraq səkkiz il müddətinə həbsdə saxlanıldı. O, təkadamlıq kamerada olarkən yüzlərlə vəzlər yazmış, onları əzbərləmişdi. Sabina Rumıniyanın Dunay kanalında məcburi əməyə məhkum edildi, lakin o, məhbus yoldaşlarını həvəslə ruhlandırdı. Vurmbrandların oğlu Mihay da bu sınaqlardan azad deyildi. Valideynləri həbsxanada olarkən, Mihay ateist kommunizmini qəbul etmiş şagirdlərə verilən “qırmızı qalstuk”u taxmaqdan imtina etdiyi üçün məktəbdən qovulmuşdu. İmanlılar “siyasi fitnəkarlar”ın övladı olan

Mihaya qayğı göstərməklə həyatlarını və işlərini riskə atdılar.

1956-cı ildə Riçard həbsdən azad edildi və gizli kilsə ilə işləməyə davam etdi. O, həbs edilərək daha altı il həbsxanada saxlanıldı və yalnız 10.000 dollar fidyə ödənildikdən sonra azadlığa buraxıldı. 1965-ci ilin dekabrında kommunist məmurlar Riçardın həbsindən heç vaxt danışmaması ona barədə xəbərdarlıq etdilər, sonra Vurmbrandların Rumıniyanı tərk etmələrinə icazə verdilər.

1965-ci ildə Vurmbrandlar Birləşmiş Ştatlara getdilər və orada kommunist ölkələrində imanlarına görə əziyyət çəkən məsihçilərə kömək etmək üçün xidmətə başladılar. Onlar dünyanı gəzərək məsihçilərin təqiblərindən danışdılar və imanlılara "özünüzü həbsdə olanların yerinə qoyaraq onları yada salın" (İbranilərə 13:3) göstərişini xatırlatdılar. Riçard özünün ən çox satılan "Məsih uğrunda əzablar" kitabını yazdı. O bu kitabda kommunist Rumıniyasında çəkdiyi əzabların təfərrüatlarını bölüşdü və bütün dünyada təqib olunan qardaşlarının ehtiyaclarını Qərbdəki məsihçilərə çatdırmaqda bir vasitəçi oldu.

1989-cu ilin dekabrında Berlin divarının yıxılmasının təsiri Rumıniyaya yayıldı. Diktator Nikolae Çauşesku və həyat yoldaşı Yelena edam edildi və Rumıniya sovet tipli kommunizmdən azad edildi. Məsihçilər yenidən Allaha ibadət etməkdə və öz Müqəddəs Kitablarına sahib olmaqda azadlıq qazandılar. Bir neçə il sonra Vurmbrandlar vətənlərinə qayıtdılar və Riçardın həbsdə olduğu yerlərdən birinə baş çəkdilər. Bura onun kitabları və digər məsihçi ədəbiyyatı üçün anbara çevrilmişdi.

Vurmbrandlar 2000-ci ildə – Sabina əbədiyyətə qovuşana qədər təqib olunan kilsə haqqında yorulmadan insanlara məlumat çatdırdılar. Sonra 2001-ci ildə Riçard dünyasını dəyişdi. Vurmbrandların təqib olunan kilsəyə

kömək etmək həvəsi bu gün də “Şəhidlərin səsi” təşkilatı vasitəsilə davam edir.

Riçard Vurmbrandın hekayəsi gəncləri Allahın varlığını getdikcə daha çox inkar edən bir mədəniyyətdə Onun uğrunda yaşamağa ruhlandıracaq cəsarət hekayəsidir. Bu, həm də kəskin tərzdə Müjdəyə qarşı çıxanları bağışlamaq və sevmək barədə bir hekayədir. Qoy biz çətinliklərə sinə gərə bilək, Allahın yolunda möhkəm dayanaq və bizi rədd edənləri bağışlayaq. Allaha həmd olsun!



*Mihay ehtiyatla pəncərədən boylandı və iki əsgəri oradan uzaqlaşdığını gördü.*

“Əsgərlər getdilər,” – deyə o, Müqəddəs Kitabların ətrafına toplaşmış məsihçilərə müraciət etdi. Kommunistlər Mihayın doğma vətəni Rumıniyanı ələ keçirəndə kilsələri bağladılar, insanlara Müqəddəs Kitab oxumağı və başqalarına İsa haqqında danışmağı qadağan etdilər. Tabe olmayanları isə həbsxanaya atırdılar.

Anası Sabina müjdəçilik üçün kitabçaları masanın üstünə qoyarkən dedi: “Paylamaq üçün kitabçaları götürün, amma xahiş edirəm, ehtiyatlı olun”. O, məsihçilərin öz ölkələrində Məsihə xidmət etməklə hansı risklərə məruz qaldığını yaxşı bilirdi.

Mihay yavaşca qapını açıb dəhlizə göz gəzdirdi. “Heç kim yoxdur,” – deyə pıçıldadı.

“Allah sizinlə olsun!” – məsihçilər onların evlərini tərk edərkən Mihayın atası Riçard dedi.







*Ertəsi gün Riçard və Sabina pastorlar, keşişlər və yepiskoplarla dolu olan konsert zalında oturmuşdular.*

Onlar bir-bir ayağa qalxıb Allahı deyil, kilsəyə nifrət edən hökumət başçısını tərifləyirdilər.

Sabina əyilib pıçıldadı: “Riçard, gör burada nə qədər pastor var, amma Allah üçün ayağa qalxmaqdan qorxurlar!”

“Əgər mən çıxış etsəm, çox güman ki, həbs olunacağam,” – Riçard dedi.

“İndi heç birimizin qorxaq olmaq vaxtı deyil,” – deyə Sabina cavab verdi.

Riçard ayağa qalxıb səhnəyə doğru getdi. “Biz kilsələrimizi bağlayan və Müqəddəs Kitaba sahib olmağımızı qadağan edən hökumətə necə itaət edə bilərik? Biz Allahımızın müdafiəsinə qalxmalıyıq!”

Orada olanlar ayağa qalxdılar. Bəziləri başlarını buladılar və yumruqlarını sıxıb Riçardın üstünə qışqırdılar, bəziləri isə onun cəsarətini alqışladılar. Riçard bilirdi ki, indi polis onu hər an həbs edə bilər.



*Sement səkidə addımlayan Riçardın ayaqqabılarının taqqıltsı eşidilirdi. “Salam!” – deyə o, küçədə dostu ilə salamlaşdı və bu an gözünün ucu ilə qara maşını gördü.*

“Məni güdürlər!” – pastor düşündü.

O, bir ilahini zümzümə edərək yavaş-yavaş səki ilə addımladı və bütün bu müddət ərzində çiyninin üstündən yolda onu izləyən maşına baxdı. O, bir neçə addım irəli getdi və cəld dayanan maşının əyləcinin səsini eşitdi. İki kişi maşından sıçrayaraq Riçardı tutub arxa oturacağa oturtdular. Pastor arvadını və oğlunu bir daha görüb-görməyəcəyini düşünürdü.







*Riçard həbsxana nəzarətçisi polkovnik Dulgerunun qarşısında dayanarkən döyülməkdən bədəni ağrıyırdı.*

"İndi sənə yeni ad verəcəyik, – polkovnik istehza ilə dedi, – sən artıq Riçard Vurmbrand deyilsən. Sən sadəcə bir nömrəli məhbussan. Onu aparın!"

Zabit Riçardı otaqdan itələyərək çıxardı və aparıb həbsxana kamerasına saldı.



*Sabina Riçardın həbsdə olduğuna əmin idi, lakin onun harada olduğunu bilmək istəyirdi.*

“Əriniz ölkədən qaçıb” – hökumət idarəsində çalışan məmur söylədi.

“Bu mümkün deyil! – Sabina cavab verdi, – onu harada saxladığınızı mənə deməlisiniz”.

“Deməliyik?!” – məmur qışqırdı və onu idarədən qovdu.

Sabina çox narahat idi. O, hələ də əri Riçardın harada olduğunu bilmirdi. Amma bunu Allah bilirdi. Sabina məmurun kabinetindən bayıra çıxanda pıçıltı ilə dua etdi: “Əziz İsa, yalvarıram, Riçardın qayğısına qal!”







*Bir neçə həftə keçdi. Polkovnik Dulgeru Riçarda kilsəsindəki insanlar haqqında çoxlu suallar verdi, lakin Riçard cavab vermədi. Pastor bilirdi ki, nəsə desə, onları da həbs edəcəklər.*

Nəhayət, Riçard polkovnikə dedi: “Kommunizm heç vaxt Allahın məhəbbətinin gücünə qalib gələ bilməyəcək. Allah insanı xaricdən gələn güclə deyil, daxildən gələn sevgi ilə dəyişir”.

Qəzəbli polkovnik Riçardın Allahdan üz döndərməsi üçün başqa bir üsula əl atmaq qərarına gəldi. Sabinanı həbs edərək və Mihayı məsihçi imanından dönməyə məcbur edərək bunu həyata keçirmək istədi. Amma o buna müvəffəq olacaqdımı?

*Riçard həbsxanada olarkən Sabina bilirdi ki, hər an həbs oluna bilər.*

Sabina oğlunu əmin etdi: “Bu, müvəqqətidir, Mihay. Burada qalmaq sənin üçün çox təhlükəlidir”.

“Ancaq, ana...” – Mihay etiraz etməyə çalışdı.

“Sən məktəbə gedəcəksən və yaxşı oxumaq üçün əlindən gələni edəcəksən,” – deyə Sabina oğlundan xahiş etdi.

Çox keçmədi ki, polis onun qapısına gəldi. Onlar Sabinanı həbs etdilər və kanalın tikintisində ağır işlər görməyə məcbur etdilər. Digər məsihçilər tək qalan Mihayın qayğısına qaldılar.









*Riçard kameranın qapısının döyüldüyünü eşidəndə başı aşağı halda diz çökmüşdü.*

Polkovnik Dulgeru bir fincan ətirli isti şorbadan qurtum-qurtum içərək dedi: “Mənim sənə şad xəbərim var. Həyat yoldaşınız kanalda işləmək istəyir və oğlunuz indi qırmızı pioner qalstuku taxır! Onlarla fəxr etməlisən!” Polkovnik özü ilə isti şorbanın ətrini apararaq kameradan çıxdı.

“Ya Rəbb! – deyə aclıqdan az qala huşunu itirəcək Riçard yalvardı. – İnanıram ki, hətta burada da mənimləsən. İnanıram ki, ailəmlə birlikdəsən. Mihaya kömək et. Ona kömək et ki, dözə bilsin və Səndən dönməsin. Sabinanın yanında ol. Bu sınağa tab gətirmək üçün ona cəsarət və güc ver”.

Allah Riçardın duasını eşitdi.



*Müəllim Mihayın boynuna qırmızı qalstuku bağlayaraq dedi: "Təbrik edirik, Mihay!"*

Mihay qalstuku boynundan dartıb çıxardı.

"Mən bunu taxmayacağam, – deyə qışqırdı və qalstuku yerə atdı, – kommunistlər atamı və anamı Allaha inandıqları üçün həbs etdilər. Mən valideynlərimlə fəxr edirəm və məsihçi olmağımla qürur duyuram! Mənə bu qalstuk lazım deyil!"

Sinif yoldaşları Mihayın sinifdən sürüklənərək məktəbdən qovulmasını təəccüb içində izlədilər. Çoxları oğlanın cəsarətini alqışladı. Riçardın duası eşidildi.







*Bu vaxt çox uzaqlarda Sabina ağır daşları daşımaq məcburiyyətində idi, bədəninin ağrımasına baxmayaraq o, başqalarına İsa haqqında danışırdı.*

O, həddən artıq yorulmuş və onun ümid dolu sözlərini qəbul edən məhbuslara dedi: “Allah əziyyət çəkdiyimiz zaman belə bizə sevinməkdə kömək edə bilər”.

Həbsxana mühafizəçiləri bundan heç də razı deyildilər. Onlar hesab edirdilər ki, bu söhbətlər qadınları işdən yayındırır.

Bir gün mühafizəçi Sabinanı Dunayın buzlu sularına atdı. Onu sudan çıxaranda mühafizəçi özü çaya düşdü! Sabinadan sevincini ala bilməyən mühafizəçiyə baxan məhbuslar gülüşlərini çətinliklə saxlaya bildilər. Sabinanın bədəni çox ağrısa da, ruhu güclü idi. Allah yenidən Riçardın duasına cavab verdi.

*İllər keçdi. Riçard hələ də həbsdə idi, polkovnik Dulgeru isə hələ də çalışırdı ki, onu Allahdan döndərsin. Lakin Riçard imanında möhkəm qalmışdı.*

“Mənə və ailəmə etdiklərinizə görə sizi bağışlayıram, – Riçard bir dəfə onun başının üstündə dayanan polkovnikə dedi, – mən tezliklə öləcəyəm. Sizin də öləcəyiniz gün gələcək. İkimiz də Allahın hüzurunda dayanacağıq. Mən hazıram. Bəs siz?”

Polkovnik qəzəbləndi. “Onu təkadamlıq kameraya salın, – deyə qışqırdı, – qoy o bir daha insanları görməsin!”

Mühafizəçilər Riçardı sürüyərək kiçik bir kameraya atdılar. O orada üç il ərzində heç kimlə danışmadı.







*Riçardın təkadamlıq kamerada olmasına baxmayaraq, Allah onu unutmadı. Bir gün onun kamerasının sükutunu zəif taqqıltı səsi pozdu.*



Pastor əyilib qulağını divara dayadı.

“Bu Morze əlifbasıdır!” – deyə o sevindi. Kimsə divarın arxasında onunla danışmağa çalışdı. “Mən pastoram!” – deyə Riçard cavab olaraq divara taqqıldatdı.

Riçard divarın arxasından gələn ahəngli taqqıltıya diqqətlə qulaq asdı. Həmin adam insanlara etdiyi pisliyi pastora etiraf etdi. “Allah məni bağışlaya bilərmi?” – deyə etirafın sonunda soruşdu.

“O səni bağışlaya bilər!” – Riçard cavab verdi. O, bütün Müjdəni qonşu kameradakı adama bu yolla “danışdı”. Yaxşı qidalanma və təmiz su olmayan soyuq, rütubətli kamerada uzun müddət qalmaq pastorun ağır xəstələnməsinə səbəb oldu.



*Həbsxana mühafizəçilərindən biri barmağını bir neçə qadına, sonra isə Sabinaya tuşlayaraq qışqırdı: “Siz, bir də sən, asayişi pozanlar.”*

“Gəlin onlardan canımızı qurtaraq!” – deyə o, digər mühafizəçilərə təklif etdi.

Qadınlar dəhşətə gəldilər. “Sabinanı hara dartıb aparırlar?!” – deyə məhbuslar bir-birindən soruşur, mühafizəçilərin onu harasa aparmasına dəhşət içində baxırdılar.

Sabinanın həbsdən azad edilməsinə özü də təəccübləndi. O, Mihayın qayğısına qalmaq üçün evə qayıtdı.







*Həbsxana rəsmiləri Riçardı təkadamlıq kameradan çıxarıb xəstə məhbuslarla dolu bir kameraya saldılar və onun səhhəti yavaş-yavaş yaxşılaşdı. Məhbus yoldaşları buna inana bilmirdilər.*

Riçard yorğanını yeni gələn məhbusa verib bir tikə çörəyini ona təklif etdikdən sonra dedi: “Bunun üçün Allaha şükürlər et!”

Lakin Riçardın təklif etdiyi çörəyi yeməzdən əvvəl yeni məhbus dedi: “Gəlin əvvəlcə Allaha həmd edək!”

“Sən məsihçisən?” – deyə Riçard sevinclə soruşdu.

“Bəli, – deyə o cavab verdi, – bir pastor Morze əlifbasından istifadə edərək divara taqqıldatmaqla məni Məsihlə tanış etdi.”

Riçard qulaqlarına inanmadı. O, yumruğunu sıxıb divara taqqıldatdı.

“Dostum, – deyə yeni məhbus onun taqqıltısını açıqladı, – nəhayət ki, biz görüşdük!”



*Riçardın həbsxana kamerası onun və digər məsihçi məhbusların ibadət yerinə çevrildi.*

“Gəlin minnətdarlıq mahnısı oxuyaq,” – deyə Riçard təklif etdi.

“Axı bizdə musiqi alətləri yoxdur,” – deyə yeni məhbuslardan biri təəccübləndi.

“Amma bizdə bunlar var,” – deyə Riçard ayaqlarındakı zəncirləri silkələyib mahnı oxuyaraq cavab verdi.

Mahnı bitdikdən sonra Riçard vəz etməyə başladı. Lakin mühafizəçilər kameraya soxularaq Riçardı sürüyüb aparanda o, vəzini dayandırmalı oldu.







*Məhbuslar çox narahat idilər. “Onu aparandan xeyli vaxt keçib,” – onlar dedilər.*

Elə bu vaxt qapı açıldı və Riçardı kameraya atdılar. Kişilər onun bütün bədəninin qançır və yaralarla örtüldüyünü gördülər və ona yenidən vəhşicəsinə işgəncə verildiyini bildilər, lakin Riçardın dediyi sözlər orada olan hər kəsi təəccübləndirdi.

“Yaxşı, vəzi davam etdirək?” – deyə o təklif etdi.

“Sən indicə vəz etdiyinə görə cəzalandırıldın,” – məhbuslardan biri dedi.

“Mən mühafizəçi ilə razılaşdım, – məhbuslar Riçardın ətrafına toplaşanda o cavab verdi, – mən vəz etməyə davam edəcəyəm və o da əvəzində buna görə məni cəzalandıracaq. Beləliklə, başlayaq!”

*Səkkiz il keçdi, lakin kommunistlər heç vaxt Riçardın Allaha xəyanət etməsinə nail ola bilmədilər. Digər ölkələrdəki məsihçilər Rumıniyadakı kommunistlərin məsihçiləri həbs etdiyini öyrəndilər. Rumıniya hökuməti Riçard kimi bir çox məhbus məsihçiləri azad etmək qərarına gəldi.*

“Qalx!” – mühafizəçilərdən biri Riçardın üstünə qışqırdı və onun gözlərini bağladı.

“Mənə nə edəcəksiniz?” – deyə pastor bayıra çıxarılarkən soruşdu.

“Səndən canımızı qurtarmaq istəyirik!” – deyə mühafizəçi qışqırdı və Riçardı divara itələdi.

Riçard dəmir qapıların bağlandığını eşitdi. Sonra birdən-birə sükut çökdü. Küçəni uğultulu avtomobil və avtobus mühərriklərinin səsi bürüdü. Riçard gözlərindən sarğını çıxardı. O, həbsxanadan kənarda idi! “Mən azadam!” – deyə pastor uca səslə nida etdi və evə yollandı.









*Sabina, Mihay və məsihçilərdən ibarət kiçik bir qrup qapının döyüldüyünü eşidəndə bərk qorxdu.*

"Görəsən bu kim ola bilər? – Sabina təəccübləndi. O, qapını açdı. – Bu Riçarddır!"

"Sabina, düşünürdüm ki, səni bir daha görməyəcəyəm," – deyə Riçard ağlayan arvadını qucaqladı.

Sabina və Riçard qonaq otağına daxil oldular.

"Mihay, – deyə Riçard böyümüş oğlunu qucaqladı, – indi biz yenə bir yerdəyik! Bizi imanda möhkəm saxlayan Allaha şükürlər olsun!" O, həbsdə olarkən oğlu elə böyümüşdü ki, onu tanımaq olmurdu.

*Riçard, Sabina və Mihay kilsədə xidmət etməyin nə qədər təhlükəli olduğunu bilsələr də, işlərinə davam etdilər.*

Polis Riçardı yenidən həbs etdi. Uzun illərdən sonra ona və ailəsinə ölkəni tərk etməyə icazə verildi. Vurmbrandlar ailəsi ABŞ-a köçdü. Onlar Amerikada insanlara Rumıniya kimi kommunist ölkələrində məsihçilərə necə münasibət göstərildiyindən danışdılar. Vurmbrandlar İsa haqqında şəhadətlik etməyin və Müqəddəs Kitaba sahib olmağın cinayət olduğu ölkələrdə məsihçilərə dərhal kömək etməyə başladılar.









*Rumıniyada məsihçilər artıq Allaha ibadət etdiklərinə görə həbs edilmirlər, lakin kilsəyə getməyin və Müqəddəs Kitabı öyrənməyin çox təhlükəli olduğu bir çox başqa ölkələr var.*

Riçard, Sabina və Mihay kimi bu məsihçilər də başqalarına İsa haqqında danışırlar. Onlar Müqəddəs Kitabı öyrənmək və Allaha ibadət etmək üçün gizli şəkildə toplaşırlar.

İsa haqqında danışmaq istədiyiniz və bunu etməkdən qorxduğunuz insanlarla görüşəndə unutmayın ki, siz tək deyilsiniz və Allahla güclü ola bilərsiniz!

## *Düşünmək və müzakirə etmək üçün*

*Mənsə sizə deyirəm ki, düşmənlərinizi sevin, sizi təqib edənlər üçün dua edin...*

Matta 5:44

Riçard onu həbs edənlərə necə münasibət bəsləyirdi? O, Allahın məhəbbətini onlara necə göstərdi?

Düşmən kimdir? Düşmən adlandıra biləcəyin insanlar barədə düşün. Sən onlara Məsihin məhəbbətini necə göstərə bilərsən? Bunun üçün nə edə bilərsən?

## *Dua*

Ya Rəbb İsa, məni incidən və haqqımda yalan danışan insanları sevmək çox çətindir. İsa, Sənə əzab verənlərə məhəbbət göstərməyinlə mənə nümunə göstərdiyin üçün təşəkkür edirəm. Səni çarmıxa çəkmiş insanları Sən sevdin. Mənə Səni sevməyənləri sevməyi öyrət. Mən dua edirəm ki, onlar da Səni öz şəxsi Xilaskarı və Rəbbi kimi tanısınlar. İsanın adı ilə.

Amin.

## *Uşaqlar və böyüklər üçün Vurmbrand ailəsi haqqında materialların siyahısı:*

“Riçard və Sabina Vurmbrand: Gizli kilsənin pastoru və həyat yoldaşı” – film
“Riçard Vurmbrandın hekayəsi” – film
Riçard Vurmbrandın “Məsih uğrunda əzablar” kitabı
Sabina Vurmbrandın “Pastorun arvadı” kitabı

## *O, Məsih uğrunda cəsarətlə dayandı. Bəs siz necə? Riçard Vurmbrandın hekayəsi*

Riçard Vurmbrand səhnəyə çıxdı və zalda olan din xadimlərinə müraciət edərək dedi: "Kilsələrimizi bağlayan və bizə İncil öyrətməyi qadağan edən hökumətə necə itaət edə bilərik? Biz Allahımızı müdafiə etmək üçün qalxmalıyıq!"

Zalda olanlar ayağa qalxdılar. Bəziləri başlarını bulayıb Riçarda yumruq göstərdilər, bəziləri isə onun cəsarətini alqışladılar. Bu hadisə 1945-ci ildə kommunist Rumıniyasında baş verdi. Yeni hökumət kilsələri bağladı və Müqəddəs Kitabın öyrədilməsini qadağan etdi. Belə vəziyyətdə Riçard Vurmbrand sakit qala bilməzdi. Onun hərəkətləri nəticəsiz qalmadı və cəsarətli pastor səkkiz il həbs edildi. Onun həyat yoldaşı da həbs olundu, oğlu isə kommunist partiyasının simvolu olan pioner qalstukunu taxmaqdan imtina etdiyi üçün məktəbdən qovuldu.

Riçard həbsdə olduğu müddətdə Allah bir neçə dəfə ona Öz sevgisini göstərdi. Bu pastor ona əzab verən insanları bağışladı. Rəbb Riçardı və ailəsini bütün çətin sınaqlardan keçən zaman qorudu və onlar Allahdan imtina etməyib kommunistlərə tabe olmadılar və imanda möhkəm dayandılar.

Riçard Vurmbrandın sənədli hekayəsi sizin övladlarınıza İsa Məsihə və Onun davamçılarına qarşı düşmənçilik edən dünyada imanlarını cəsarətlə müdafiə etməkdə kömək olacaq.

Uşaqlarınız həmçinin "Məşəl daşıyanlar" silsiləsindən olan "Riçard və Sabina Vurmbrand: gizli kilsənin pastoru və həyat yoldaşı" filmindən ilham alacaqlar.

AZ